# “Heydər Əliyev və Azərbaycan gəncliyi”

*YAP Tərtər rayon təşkilatında bu mövzuda tədbir keçirilib*

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar, tədbirlər planına uyğun olaraq, Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatı gənclər birliyinin təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə Azərbaycan gəncliyinin firavan həyatı, təhsili, sağlamlığı, vətənpərvər ruhda böyümələri






üçün daim qayğı göstərməsindən danışaraq, bu gün ölkəmizdə Möhtərəm Prezident İlham Əliyevin Ulu Öndərin gənclər siyasətini davamlı olaraq həyata keçirdiyini vurğulayıb.

YAP rayon təşkilatı gənclər birliyinin sədri, rayon gənclər və idman idarəsinin rəisi Emin Pənahov “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusuna həsr olunmuş məruzə ilə çıxış edib. Məruzədə qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin istər birinci, istərsə də ikinci hakimiyyəti dönəmlərində həmişə gənclərin problemləri və onların həlli Onun işinin əsas qayələrindən biri olmuşdur: “Hələ sovetlər dövründə gənclərin respublikadan kənar təhsili məsələləri daim diqqət mərkəzində saxlanılmış, Azərbaycanın gələcəyinə yönələn tədbirlərdən biri də ölkədə hərbi kadrların yetişdirilməsini təmin edəcək Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması olmuşdur”. E.Pənahov bildirib ki, Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə də Azərbaycanın gələcəyinin gənclərə məxsus olduğunu vurğulayırdı.

Tədbirdə Bəyimsarov kənd ümumi orta məktəbinin müəllimi Gülnar Allahverdiyeva, mərkəzi rayon xəstəxanası, təcili yardım şöbəsinin feldşeri Fuad Xanlarov, rayon mərkəzi xəstəxanasının tibb bacısı Çinarə Əzizbəyli, Qazyan kənd ümumi orta məktəbinin müəllimi İlahə Kərimli və Heydər Əliyev Mərkəzinin işçisi İradə Əkbərli çıxış edərək, gənclərimizin Ulu Öndər Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirmələrindən, onların bu gün Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin xoş gələcəyə doğru addımlamasında ön cərgədə olmaqdan qürur hissi duyduqlarını qeyd ediblər.

***Rövşən RƏSULOV***